| INTER PROJECT | **İnteqrasiya Olunmuş İdarəetmə Sisteminin**<br>**Keyfiyyət Siyasəti** | Sənəd No: IP-IMS-QA-QP01<br>Re:00<br>Tarix : 01.02.2024 |
|---|---|---|

**"INTER PROJECT" QSC** öz iş fəaliyyətində Azərbaycan Respublikası qanunvericiliyini, müvafiq yerli və beynəlxalq norma və standartları, həmçinin öz Nizamnaməsini rəhbər tutaraq müqavilə, razılaşma ilə təyin olunmuş tələbləri qarşılayacaq *"tikinti-quraşdırma işləri"nin* həyata keçirilməsini, həmçinin *"dizayn"*, *"satın alama"*, *"tender"*, *"xərclərə nəzarət"* və digər layihələrin idarə edilməsi xidmətlərini təmin edir.

Bununla bağlı aşağıdakı məsələlər daim diqqət mərkəzindədir:

- Maraqlı tərəflərin ehtiyac və gözləntilərinin öyrənilməsi, təhlili, qiymətləndirilməsi və uyğunluğun təmin edilməsi məqsədi ilə öhdəliklərin müəyyən edilməsi və onların əsasında məqsədlərin təyini və icrasının təmin edilməsi, maraqlı tərəflərin məmnunluğunun arzu olunan səviyyəsinin təmin edilməsi;

- Siyasətimizin təşkilatın bütün səviyyələrinə çatdırılması və başa düşülməsinin təmin edilməsi;

- İşçilərin daimi inkişafını və təkmilləşməsini, xidmətin operativliyinin təmin edilməsi məqsədilə vaxtaşırı təlimlərin təşkil edilməsi;

- İnteqrasiya olunmuş idarəetmə sisteminin tərkibində ISO 9001:2015 standartının tələblərinə uyğun olaraq keyfiyyəti idarəetmə sisteminin qurulması, tətbiqi və işləkliyinin təmin edilməsi, davamlı nəzarət və təhlillər apararaq təkmilləşdirilməsi;

- Şirkətin yüksək rəqabətə davamlılığını təmin etmək məqsədilə yeni texnologiyaların mənimsənilməsi və tətbiq edilməsi;

- Müştəri məmnuniyyətinin artması üçün təqdim etdiyimiz xidmət keyfiyyətinin yüksəldilməsi, davamlı yaxşılaşdırmaya nail olmaq üçün dünyada sahəmizlə bağlı yeniliklərin öyrənilməsi və tətbiq edilməsi.

**"INTER PROJECT" QSC-nin Direktoru** **İlqar Rəhimov**

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ INTER PROJECT AZERBAIJAN REPUBLIC CLOSED JOINT-STOCK COMPANY